**LALƏ QURBANOVA***

# MƏTN VƏ ONUN ƏLAQƏLİLİK VASİTƏLƏRİ

**XÜLASƏ**

Məqalədə mətn və onun formalaşdıran amillərdən bəhs edilir. Azərbaycan və dünya alimlərinin mətnlə bağlı nəzəri fikirləri məqalədə geniş şərh olunur. Məqalədə mətni formalaşdıran qrammatik qaydalarla yanaşı semantik cəhəti də izah olunur. Mətnin üç mərhələdən (başlanğıc, orta və son) keçərək qurulması barədə fikirlər məqalədə öz əksini tapır. Burada mətnin əsas təhlil obyekti kimi kohheziya və koherensiya göstərilir. Məqalədə mətni tamamlaşdıran amillər kimi linqvistik, psixoloji və məntiqi amillər qeyd olunur. Nəticə olaraq qeyd edilir ki, mətn linqvistik, psixoloji və məntiqi amillərlə inteqrasiya olunur. Subyektin ideyasının əsası (tema, rema) mətndə leksik təkrarlar, qrammatik qaydalar və fonetik xüsusiyyətlər vasitəsilə açılır. Mətnin yaranması informasiyanın tam anlaşılmasına xidmət edir. Mətn koqnitiv prosesdən keçərək yaranır.

**Açar sözlər:** *mətn, leksik təkrar, semantik əlaqə, prosodik xüsusiyyətlər, praqmatik.*

Mətn dilçiliyinin müstəqil və yeni bir dilçilik sahəsi kimi formalaşması və inkişafı məhz mətn daxili əlaqəliyi yaradan və cümlə səviyyəsini keçən koheziya (qrammatik, leksik, üslubi) və koherentliyin (semantik və məntiqi əlaqələr) tədqiqi sayəsində mümkün olmuşdur. M.A.K. Hallidey və R.Həsən ingilis dili materialları əsasında mətni formalaşdıran koheziyanı qeyd və sistemli şəkildə tədqiq etmişlər. Koheziya vasitələrini qrammatik və leksik baxımdan qruplaşdırmışlar. Bundan başqa, dünya dilçiliyində N.Enkivist, A.van DeykTeun, U.Eko, M.A.K Həlidey və başqaları da mətni müxtəlif aspektlərdən tədqiq etmişlər. Rus dilçiliyində İ.Qalperin, İ.S.Pospelov, İ.F.Vardul, Q.Y.Solqanik, T.M.Nikolayeva, O.İ.Moskalskaya və başqaları mətnin qurulması və formalaşması, mətnin semiotik və praqmatik aspektləri, mətndə əlaqəlik və mətnin koqnitiv olaraq yaranmasını izah etmişlər. Azərbaycan dilçiliyində isə A.Qurbanov, K.Abdulla, Q.Kazımov, F.Veysəlli, A.Məmmədov, Ə.Abdullayev və başqa dilçilər mətn və mətn yaradan vahidlər barədə fikirlər söyləmişlər, müxtəlif aspektlərdən tədqiqat aparmışlar.

Mətnin tədqiqinə keçən əsrin ortalarından başlanmışdır və maraqlıdır ki, mətnin praqmatik, semiotik, koqnitiv və antropoloji aspektlərdən tədqiqi də həmin illərə təsadüf edir. Mətnin bu aspektlərdən tədqiqi mətndə morfoloji və sintaktik-semantik əlaqəlilik məsələsini kölgədə qöyur, əsas diqqət mətn və kontekstə, mətndə subyektin praqmatik niyyətinə, nitq prosesində danışanla dinləyənin gizli və ya açıq formada informasiyanın təqdim və qəbuluna, mətnin mənası və interpretasiyası və s. kimi məsələlərə yönəlir. Mətnin mənası və onun dərk edilməsi barədə çoxsaylı fikirlər olsa da, bu fikirlər mübahisəlidir və mübahisəli olduğu üçün də mətn və onun müxtəlif aspektlərdən tədqiqi dilçilikdə son dövrlərin ən aktual məsələlərindən biridir. Bir sıra alimlər mətn barədə müxtəlif fikirlər söyləsələr də, əsas məzmun eynidir, yəni alimlərin fikrincə, mətn fikrin məğzini və ya əsas mənasını təşkil edən bütövdür, mətn bir-birini izləyən sadə və mürəkkəb cümlələrdən yaranan cümlələr birliyidir, məchuldan məluma doğru irəliləyən məna tutumuna malik nitq materialıdır, qrammatik qayda-

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, filologiya elmləri doktoru, dosent, *lala.qedirova@mail.ru*

lara uyğunlaşan, təkrar leksik vahidlərdən və prosodik xüsusiyyətlərə malik bir bütövdür [Лотман: 1970; DijkTeun A.Van: 1977; Enkvist: 1989; Eco: 1979].

Alimlərin yuxarıda qeyd edilən fikirləri ilə razılaşmaq olar, ancaq qeyd edim ki, bu xüsusiyyətlərlə yanaşı, mətnin yaranması və formalaşması tam bir koqnitiv prosesdən keçir. Biz hər zaman qeyd edirik ki, cümlə bitmiş bir fikir bildirir, doğrudur, ancaq cümlə subyektin tam fikrini əks etdirə bilmir, tam məlumat mətn yarandıqda aşkara çıxır. Deməli, məlumatın əsası cümlədən başlayır, ancaq mətndə tamlanır. Dilçilikdə linqvistik, psixoloji və məntiqi amillər mətni tamlaşdırmağa xidmət edir. Leksik təkrarlar, formal qrammatik qaydalar, fonetik xüsusiyyətlər və fikrin nitqdə inkişafı məhz mətndə üzə çıxır.

I.R.Qalperin mətnə tərif verərək onu aşağıdakı kimi izah edir: "Mətn başlığa, müəyyən məqsədəyönlülüyə və praqmatik marama malik leksik, qrammatik, məntiqi, üslubi əlaqə vasitələri ilə birləşmiş bir sıra spesifik vahidlərdən ibarət bitmiş və ədəbi işlənmiş nitq məhsulunu təşkil edən dil işarələrinin qaydalı və yazılı birliyidir" [Гальперин: 1981, c.24]. O.Moskalskaya mətni bütövlükdə insan fəaliyyətinin müxtəlif və rəngarəng nəticələrindən biri kimi dəyərləndirir və bunu elmi tədqiqatların kompleks formada obyekti kimi şərh edir. Onun mətn barədə fikri I.R.Qalperinin mətn haqqındakı fikirlərilə prinsip etibari ilə üst-üstə düşür. O, mətni bütöv nitq əsəri kimi qeyd edir, yəni geniş mənada mətn - makro-mətn kimi; b) frazafövqü vahid (mürəkkəb sintaktik bütöv, cümləfövqü vahid) kimi, dar mənada isə mətn mikro-mətn kimi anlayır [Москальская: 1981, c.44]. Alimlərin fikrinə əsasən qeyd etmək olar ki, makro-mətn bir neçə frazafövqü vahid, mürəkkəb sintaktik bütöv, cümləfövqü vahid və digər bütövlər vasitəsilə yaranır.

Q.Kazımov qeyd edir: "Mətnin qurulması, formalaşması üçün semantik cəhətlə yanaşı, onun komponentləri qrammatik cəhətdən də bir-biri ilə əlaqələnməlidir". Müəllif şifahi nitqdə ən universal vasitə kimi intonasiyanı qeyd edir [Kazımov: 2000, s.434]. Q.Kazımovla razılaşaraq qeyd edim ki, intonasiya mətndəki əsası, özək fikri üzə çıxarır. Digər cümlələr isə əsas fikri əks edən cümlənin intonasiyası ilə uzlaşır.

F.Veysəlli intonasiyadan danışaraq mətnin qurulmasında digər vasitələrlə yanaşı, intonasiyanı da mətn formalaşdıran amil kimi önə çəkir: "Mətnin daxili əlaqələrinin formalaşmasına xidmət edən amillər içərisində leksik, qrammatik, fonetik vasitələr, həmçinin intonasiya mühüm rol oynayır" [Veysəlli: 2013, s.234]. Mətn yazılı və şifahi olduğu üçün F.Veysəlli ilə tam razılaşmaq olar. Mətn və mətni formalaşdıran cümlələr birliyi canlı danışıqda fonetik vasitələr, intonasiya və onun komponentləri vasitəsilə canlanır. Yazılı mətn yazıda dil qaydaları vasitəsilə əks olunur, canlı danışıq isə mətndə verilən xəbərdən başqa, danışanın keçirdiyi hiss-həyəcanı da əks etdirir. İntonasiya və vurğu qarşı tərəfə ötürülən məlumatın mənasının tam formalaşmasına xidmət edir və dərk olunmasını asanlaşdırır. Mətndaxili strukturu bir-birinə bağlı eksplisit (açıq) və impilist (gizli) təkrar olunan cümlələrdən ibarətdir. Mətndə olan bu komponentlər arasındakı münasibətlər bir-biri ilə bağlıdır, bir-birini izləyir və bu komponentlər qarşılıqlı olaraq bir-birini tələb edir. Məlumdur ki, yazılı mətndən söhbət gedərsə, prosodik elementlər heç cür mətn strukturunun tərkib hissəsi kimi qeyd edilə bilməz. Mətn dilçiliyində prosodik amillər mətndə differensial elementlər kimi götürülür və burada sintaktik münasibətlərin öyrənilməsi struktur-semantik yolla izah edilir. Mətnin aktual üzvlənməsində bu cür yanaşma daha çox özünü göstərir və həm cümlə və həm də mətn yaradan parçaların mənası intonasiyadan asılı olaraq dəyişilə bilir. Bu cür dəyişmələr yanlız mətnin məzmununu dəyişməyə xidmət etmir, burada həmçinin mətnin

tərkib hisssələri də dəyişir. Mətn dil vahidləri ilə yaranır, koqnitiv fəaliyyət və nitq vasitəsilə həyata keçirilir.

A.Məmmədov mətnin yaranma üsullarını belə qeyd edir: “Fikrimizcə, mətn yaranmasında, əsasən, aşağıdakı formal əlaqə vasitələri iştirak edə bilər: qrammatik vasitələr (bağlayıcılar, ön sözlər, determinantlar, deyktik elementlər, o cümlədən müxtəlif tipli əvəzliklər, artikullar, feilin zaman formaları və s.); leksik əlaqəlik; fonetik təkrar (buraya alltersiya, assonans kimi bədii üslubi üsullar daxildir); morfoloji təkrar (cins, zamana, hal kateqoriyası əlamətlərinin təkrarı); leksik təkrar (sözlərin tam, natamam, yəni müxtəlif qrammatik formalarda olan təkrarı və sıfır təkrarı ); sintaktik təkrar (söz sırasının tam və natamam təkrarı, söz sırasının pozulması – inversiya və s.)” [Məmmədov: 2001, s.64]. Müəllifin yuxarıda qeyd etdiyi izahılar ingilis dilində verilən mətndə öz əksini tapır.

Məsələn, This same young man who has had all kinds of difficulty in his life was asked to write an essay on the subject, "What is a man?". Here's what he wrote: A real man is kind. A real man is caring. A real man walks away from silly macho fights. A real man helps his wife. A real man helps his kids when they are sick. A real man doesn't run from his problems. A real man sticks to his word and keeps his promises. A real man is honest. A real man is not in trouble with the law. It's one lonely boy's vision of a man who stays. A man who is both an authority and under authority.

Mətnin tərcüməsi:

Həyatında hər cür çətinliklə üzləşmiş gəncə “Kişi kimdir?” mövzusunda inşa yazmağı tapşırdılar. Aşağıdakılar onun qısa fikridir. O, yazıb: Əsl kişi mehribandır. Əsl kişi qayğıkeşdir. Əsl kişi axmaq maço döyüşlərindən uzaqlaşır. Əsl kişi həyat yoldaşına kömək edir. Əsl kişi uşaqları xəstələnəndə kömək edir. Əsl kişi problemlərindən qaçmaz. Əsl kişi sözünün üstündə durur, vədinə əməl edir. Əsl kişi dürüstdür. Əsl kişinin qanunla problemi yoxdur. Bu, tənha bir oğlanın qalan bir adama baxışıdır. Həm ixtiyar sahibi, həm də səlahiyyət altında olan adam (Stu Weber: A Tender Warrior).

Bu misaldan göründüyü kimi “What is a man?"-“Kişi kimdir?” sualına verilən cavabda “man-kişi” sözü təkrarlanır və müxtəlif leksik əlaqə yaradaraq izah olunur. Bu mətn alimin qeyd etdiyi kimi, müxtəlif morfoloji təkrarlar və qrammatik qaydalarla formalaşmış bir bütövdür. Digər bir tərəfdən, bu mətnin genişlənməsi onun dərk edilməsini həyata keçirir.

Bu gün elmi dilçilik mətnin hərtərəfli öyrənilməsini tələb edir. Mətni tam dərk edib, başa düşmək ilk olaraq cümlənin yaranmasından, onun formalaşmasından və onun mətndaxili istiqamətinin tədqiqindən keçir və digər tərəfdən isə *mətnin yaranmasında koqnitiv prosesin necə getdiyini öyrənməkdir.* Mətnin daxili və xarici xüsusiyyətləri, mətnin sərhədinin müəyyənləşməsi, mətnin anlam komponentləri, nitqdə mətnin qavranılması məsələsi bu gün Azərbaycan dilçilərinin əsas və aktual hesab etdiyi məsələlərdəndir. Son illərdə Azərbaycanda mətn dilçiliyində tədqiqat aparan alimlər mətni koqnitiv, psixolinqvistik, linqvokultroloji və s. aspektən daha çox tədqiq edirlər. Bu barədə fikirlər mübahisəli olsa da, böyük maraq doğurur.

Müəllif tamamilə doğru olaraq qeyd edir ki, “mətnin koqnitivişlənməsinin tam modelinin tərkibinə nəticə komponenti daxil edilməlidir”, *çünki mətnin yaranması və formalaşmasının başlanğıcı necə koqnitiv prosesin məhsuludursa, onun nəticəsi də koqnitiv prosesin məhsuludur, mətnin başlanğıcı, əsası nəticədə yekunlaşır.*

N.E.Enkvist mətnin qurulmasını belə qiymətləndirir: "Mətn formal əlaqəliliklə yanaşı (koheziya), məntiqi əlaqəlilik (koherentlik) sayəsində qurulur" və hər zaman diqqət mərkəzində olmuşdur . O, mətndaxili əlaqəliliyi belə sixemlə verir: Əlaqəlilik = koheziya = koherentlik [Enkvist: 1970, p.369]

Qeyd edək ki, koheziya termini ilk dəfə olaraq ingilis diliçisi M.Halidey tərəfindən işlədilmişdir və o, bu termini mətndaxili əlaqələrin müəyyən edilməsi üçün işlətmişdir. M.Haliday və R.Hasan koheziyanı beş bölmədə izah edirlər: 1) referensiya; 2) substitutsiya; 3) ellipsis; 4) konyuksiya; 5) leksik koheziya. Qeyd edilən koheziyanın bütün kateqoriyaları struktur-qrammatik və leksik əlaqə hadisəsidir ki, müəlliflərin göstərdiyi bu beş bölgü iki əlaqə tipinə əsaslanır, birinci tip, ifadə olunan predmet və hadisələrin eyniliyi ilə, ikinci tip isə predmet və hadisələrin bir-birinə bağlılığı ilə izah edilir [Halliday, Hasan: 1979, s.23].

Mətni struktur cəhətdən bütövləşdirən koheziya bir sıra amillərin köməyi ilə reallaşır. Tədqiqatlardan aydın olur ki, dilin istənilən səviyyəsi koheziya üçün nə isə verir. M.A.K.Hallidey mətn yaratmaq funksiyasının yerinə yetirilməsində "cümlənin funksional perspektivini" irəli sürür və cümləni məlumat ötürücüsü kimi izah edir, cümləni mətn yaradan dil komponenti kimi müəyyənləşdirir [Halliday:1976, p.192].

Mətndə cümlələr ayrı-ayrılıqda öz strukturunu qoruyub saxlayır, ancaq cümlələr birliyi yarandıqda onlar öz strukturundan kənara çıxır və struktur-semantik baxımdan özündən əvvəl və sonra gələn cümlələrlə bağlanır. Belə ki mətni təşkil edən cümlələrin dəqiq və özünəməxsus mənası yalnız mətn irəlilədikcə, yəni davam etdikcə daha dərindən dərk edilir və mətnə (mətndəki məqsədə, ideyaya) tam uyğunlaşaraq dəyişir. Cümlənin bu kateqoriyasının əsl təbiəti və mahiyyəti tam dolğunluğu ilə yalnız mətn səviyyəsində aydın olur və cümlənin hansı funksiya yerinə yetirməsi məhz bu səviyyədə üzə çıxır. Yuxarıda qeyd olunanlardan aydın olur ki, mətn elə bir bütövdür ki, onun elementləri müəyyən şəkildə qarşılıqlı olaraq əlaqədədir və bu hal cümlələ ayrı-ayrılıqda bitkin cümlələr kimi özünü göstərir. Ancaq mətnin tərkibində bu cümlələrin bitkinliyi nisbi xarakter daşıyır və buna görə də kommunikativ tiplərinə görə cümlələrin təhlilinə mətn tərkibində və mətndən kənarda fərqli yanaşmaq lazımdır.

Mətn cümlə kimi başlanğıc, orta və son mərhələlərdən ibarətdir – başlanğıcı bütün mətn quruluşunun əsasına, yəni əsas temaya işarə edir, danışanın ideyasını (çatdırmalı olduğu fikri), çatdırma funksiyanı yerinə yetirir və bu o deməkdir ki, mətnin giriş hissəsi mətnin bütöv qurulması prosesinə imkan yaradır. Mətnin başlanğıc mərhələdəki formal və məntiqi-semantik vasitələrlə ifadə olunan təkrar komponentlər mətnin son mərhələsində fikrin bağlanmasını həyata keçirir. Deməli, mətnin başlanğıc mərhələsi mətnin mövzuya ümümi girişi kimi dəyərləndirilir. Mətnin orta mərhələsi başlanğıc mərhələdə əsası qoyulan ümumi məzmunun açılışına xidmət edir. Orta mərhələ mətnin ən vacib informasiyasının ötürülməsini təşkil edir, mətndə son mərhələ həm mətnin sərhədini təyin edir, həm də deyilən məlumatın nəticəsini dəqiqləşdirir. Mətnin son mərhələsi eyni zamanda həm mətnin sərhədinin işarəsi, həm də özünəməxsus müəyyən bir mövzunun, mətn boyu təqdim edilən məlumatın nəticəsinə dönür. Bu sonluq bir tərəfdən, mövzunun konkretləşdiricisi kimi özünü göstərə bilir, digər tərəfdən, mövzunun ümumi abstraktlaşmış səciyyəsini ifadə edə bilir [Зарубина: 1979, s.106].

Q.Kazımov mətnin üç mərhələdən keçdiyini qeyd edir: "Mətnin semantik bütövlüyü mikrotemanın şərhi ustalığı ilə bağlıdır. Mikrotemanın şərhi başlanğıc, inkişaf və nəticədən

ibarət üç mərhələdə başa çatır. Başlanğıc mərhələdə tema haqqında ümumi məlumat verilir; ikinci mərhələdə (inkişaf) tema şərh edilir; üçüncü mərhələdə ümumiləşdirilir və yekunlaşdırılır. Bundan sonra yeni mikrotemaya, deməli, yeni sintaktik bütövə keçilir" [Kazımov: 2000, s.430].

Ümumiyyətlə, mətndə təkraraların verilməsi mətndəki məlumatın açılmasına, dəqiqləşməsinə xidmət edir. Məsələn:

*Səmada Bulud adlı ağ bənizli, ağ libaslı bir qız yaşarmış. O, quş lələyi ilə oynamağı çox sevirdi. Lələk onun sevimli oyuncağı idi. Bir gün Bulud Lələklə oynayırdı, qəfildən Lələk yavaş-yavaş aşağı uçmağa başladı. Lələk aşağı endikcə, Buludun rəngi qaralırdı. Lələk torpağa düşdü. Bunu görən Bulud ağlamağa başladı. Bulud ağladı, ağladı, torpaq yaş oldu, Lələk palçığa qarışdı. Bulud nə edəcəyini bilmirdi. O, çox məyus olmuşdu. Buludun köməyinə Günəş çatdı. Günəş torpağı qurutdu. Bulud sevindi. Külək Buluda dedi:- Sən heç qəm yemə. Mən indi elə tufan qaldıraram ki, Lələk göyə uçar. Bulud sevindi. Güclü külək əsməyə başladı. Lələyi göy üzünə uçurdu. Bulud sevimli oyuncağına qovuşdu* [https://portal.azertag.az/az/node/25996. 06.12.2022].

Burada "Səmada Bulud adlı ağ bənizli, ağ libaslı bir qız yaşarmış" cümləsi mətnin başlanğıc cümləsidir, "Bulud" adlı qız və onun sevimli oyuncağı "Lələk" müxtəlif leksik-qrammatik təkrarlarla verilir, mətnin orta hissəsində Buludun oynadığı lələyin başına gələnlər şərh olunur və sonda Buludun sevimli oyuncağına-lələyə qovuşması ilə nəticələnir.

Deməli, mətndə əlaqə vasitəsi rolunu oynayan inversiya söz sırasının elə dəyişməsini həyata keçirir ki, burada ümumi üzv bütün mətnin əvvəlində deyil, mətn komponentlərinin arasında işlənir. Bunda əsas məqsəd də odur ki, ümumi üzvün orta mövqedə işlənməsi ilə, yəni həm özündən əvvəlki, həm də özündən sonrakı komponentlərə aid olmaları ilə bu komponentlərin bir-birinə daha möhkəm bağlanması əldə edilsin.

Nəticə olaraq demək olar ki, linqvistik, psixoloji və məntiqi amillər mətni bütövləşdirir və tamamlayır. Leksik təkrarlar, qrammatik qaydalar, fonetik xüsusiyyətlər, fikrin əsası (tema, rema) və ya məqsədi məhz mətndə üzə çıxır. Deməli, mətn tam məlumatın ötürülməsinə və anlama xidmət edir. Cümlədə tam açılmayan fikrin əsası sintaktik bütövdə üzə çıxır.

## ƏDƏBİYYAT


1. Abdullayev Ə.Ə. Mətni anlama modelləri. Bakı, 1999.
2. Kazımov, Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, Ünsiyyət, 2000.
3. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı, Elm, 2001.
4. Veysəlli, F.Y. Dilçiliyin əsasları. Studia Philologica VI. Bakı, Mütərcim, 2013.
5. Гальперин И.Р. Текст как объект лингвистического исследования. Москва, Наука, 1981.
6. Зарубина Н.Д. К вопросу о лингвистических единицах текста — «Синтаксис текста». Москва, 1979
7. Лотман, Ю. М. Структура художественного текста. Москва, Наука,1970.
8. Москальская О.И. Грамматика текста. Москва, Высшая школа, 1981.
9. DijkTeun A. van Text and context. Explorations in in the semantics and pragmatics of discourse. London, Longman, 1977.
10. Eco U. The role of the reader: Explorations in the semiotics of texts (Advances in Semiotics), Bloomington, Indiana University Press,1979.

11. Enkvist N.E. Linguistic stylistics. Mouton, The Hague, 1973.
12. Enkvist N.E. Text, cohesion and coherence. Cohesion and Semantics. Rublications of the Research İnstitute of the ABO Academic Foundation, 1970.
13. Halliday, M.A.K., Hasan R. Cohesion in English. London, Longman, 1976.


**Lala GURBANOVA**

**TEXT AND ITS MEANS OF COMMUNICATION**

**SUMMARY**

The article deals with the issue of text and its formation. The theoretical opinions of the Azerbaijani and world scientists on the text are widely interpreted in the article. In the article have been mentioned the grammatical aspect as well as the semantic aspect of the text.The setting of the text through three stages is explained in the article. Here, cohesion and coherence are shown as the main object of the analysis of the text.In the article linguistic, psychological and logical factors have been pointed out as complementing the text.The division given by N. Enkvist and A. Mammadov concerning the methods of creation of the text is reflected in the article. Thus, the text is integrated with linguistic, psychological and logical factors. The basis of the subject's idea (theme, rheme) is also revealed in the text through lexical repetitions, grammatical rules and phonetic features. The emergence of the text serves to fully understand the information. The theoretical concepts given in the article are explained with examples.

**Key words:** *text, lexical repetition, semantic relation,prosodic features, pragmatic.*

**Лала КУРБАНОВА**

**ТЕКСТ И ЕГО СРЕДСТВА СВЯЗИ**

**РЕЗЮМЕ**

В статье рассматривается проблема текста и его формирования. В статье широко интерпретируются теоретические взгляды азербайджанских и мировых ученых на текст. В статье упоминается грамматический аспект, а также семантический аспект текста. В статье истолковывается организация текста через три этапа. Здесь связность показана как основной критерий анализа текста. В статье в качестве дополняющих текст упоминаются лингвистические, психологические и логические факторы. В статье отражено разделение Н. Энквиста и А. Мамедова, выделенные по поводу методов создания текста. Таким образом, текст интегрируется с языковыми, психологическими и логическими факторами. Основа идеи субъекта (тема, рема) также раскрывается в тексте через лексические повторы, грамматические правила и фонетические особенности. Создание текста служит для полного понимания информации. Теоретические концепции, приведенные в статье, поясняются примерами.

**Ключевые слова**: *текст, лексический повтор, смысловой аспект, просодические особенности, прагматичный.*